# Patogen xüsusiyyətli virus

Artıq bir ildən çoxdur ki, koronavirus bütün bəşəriyyəti öz cənginə alıb. Bəs koronavirus nədir? Və insan həyatı üçün hansı təhlükələri var?

Koronaviruslar insan və ya heyvanlar arasında yayıldığı sübut edilmiş patogen xüsusiyyətləri olan geniş viruslar ailəsidir. Araşdırmalara görə, bir sıra koronaviruslar insanlarda adi soyuqdəymədən tutmuş, daha ciddi xəstəliklərə qədər, məsələn, Yaxın Şərq Tənəffüs Sindromu (MERS) və Ağır Kəskin Tənəffüs Sindromu (SARS) kimi respirator infeksiyalara səbəb ola bilər.

**COVİD-19 nədir?**

COVİD-19-koronavirusların son bir ildə aşkar edilmiş yeni növünün səbəb olduğu infeksion xəstəlikdir. COVİD-19 virusuna yoluxmuş insan asanlıqla bu xəstəliyi başqasına yoluxdura bilər. Bu virus 2019-cu ilin dekabrında ilk olaraq Çinin Uhan şəhərində aşkar edilmişdir. Bu şəhərdə aşkar edilmiş virus sürətlə digər ölkələrə də yayıldı.

ÜST-ün Fövqəladə Komitəsinin iclasında, koronavirusun yayılması ilə bağlı ciddi narahatlıqlar yarandı və 2020-ci il martın 11-də ÜST COVİD-19 qlobal pandemiyası ilə bağlı həyəcan təbili çaldı.

**Azərbaycanda koronavirus**

Azərbaycanda koronavirusa ilk yoluxma faktı, 2020-ci il 28 fevralda qeydə alınıb. Bununla da fevralın 29-da Azərbaycanda virusun yayılmasının qarşısını almaq məqsədilə tədbirlər görülməyə başlandı. Koronavirus pandemiyasının səbəb ola biləcəyi təhlükənin qarşısını almaq, profilaktik və təxirəsalınmaz tədbirlərin görülməsi üçün Azərbaycan Respublikası Nazirlər Kabineti nəzdində Operativ Qərargah yaradıldı. Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Əməliyyat qərargahı martın 14-dən etibarən ölkə daxilində tətbiq olunan sosial təcrid tədbirlərini həyata keçirməyə başladı. Bu gün də ölkəmizdə koronavirusa qarşı tədbirlər yüksək səviyyədə davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqları əsasında ölkəmizdə modul tipli xəstəxanaların tikilişinə başlandı . Bununla bərabər, laboratoriyaların sayı bir neçə dəfə artdı. Pandemiya başlayanda cəmi 6 laboratoriya var idisə, görülən tədbirlər sayəsində laboratoriyaların sayı 45-ə çatdı. Hazırda ölkəmizdə 13 modul tipli xəstəxana fəaliyyət göstərir. Koronavirus pandemiyası ilə əlaqədar dövlətimizin başçısı əhalinin sağlamlığının təmin olunması məsələsinə xüsusi həssaslıqla yanaşır. Prezident İlham Əliyevin tapşırığına əsasən aidiyyəti dövlət qurumları qısa müddətdə tibbi maska istehsalı avadanlığının və xammalın Azərbaycana gətirilməsinə nail oldu.



Sumqayıt Kimya Sənaye Parkında yaradılan tibbi maska istehsalı müəssisəsinin istifadəyə verilməsi ilə ölkədə maska çatışmazlığı aradan qaldırıldı. Bunlardan əlavə, koronavirusla bağlı təbliğat-təşviqat və maarifləndirmə işlərinin gücləndirilməsi məqsədi ilə də ölkəmizdə tədbirlər görülür. Paytaxt Bakı şəhəri də daxil olmaqla, ölkənin digər regionlarında mütəmadi olaraq dezinfeksiya işləri aparılır, müvafiq qurumların əməkdaşları vətəndaşlarla maarifləndirici söhbətlər aparır. Prezident İlham Əliyevin uğurlu tədbirləri sayəsində ölkəmiz koronavirusla mübarizədə müsbət nailiyyətlər əldə etdi. Pandemiya ilə mübarizədə Azərbaycan həmkar ölkələrlə operativ danışıqlar apararaq 5 ölkədən-İtaliya, Çin, Kuba, Rusiya və Türkiyədən həkimlər dəvət etdi. Bu, xəstələrin müalicə olunmasında xeyli kömək etdi bizə. Qeyd edək ki, ölkə başçısının tapşırığı ilə karantin dövrlərində də vətəndaşlarımıza diqqət və qayğı göstərilir, maddi yardımlar edilir. Onu da vurğulayaq ki, dövlətimiz təkcə öz daxilində deyil, pandemiya ilə qlobal səviyyədə də mübarizə aparır. Çünki yer üzünün ortaq bəlası olan COVİD-19 təhlükəsindən beynəlxalq əməkdaşlıq sayəsində qurtulmaq mümkündür. Ölkəmiz ÜST-ün büdcəsinə 10 milyon dollar məbləğində könüllü ianə edib. Azərbaycan 30-dan çox ölkəyə maliyyə yardımı və humanitar dəstək göstərib.

**Azərbaycanda vaksinləşmənin başlanması**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 16 yanvar tarixli sərəncamı ilə Azərbaycan Respublikasında "COVİD-19 virusu əleyhinə 2021-2022-ci illər üçün vaksinasiya strategiyası" təsdiq edilib. Strategiyaya uyğun olaraq, vaksinasiyanın 1-ci mərhələsində səhiyyə işçiləri, 65 yaşdan yuxarı şəxslər və hüquq-mühafizə orqanları tərəfindən əks-epidemiya tədbirlərinə cəlb olunan heyət peyvənd olunmuşdur. Vaksinin əhəmiyyəti immuniteti gücləndirmək yolu ilə xəstəlikdən qorunmaq, infeksiyanın ötürülməsini məhdudlaşdırmaq, ölüm halının qarşısını almaq və nəticədə səhiyyə sisteminə düşən yükü azaltmaqdan ibarətdir.

Artıq verilmiş müvafiq qərara əsasən, yanvarın 18-dən Azərbaycanda əhalinin vaksinləşməsinə başlanılıb. Azərbaycan koronavirusla effektiv mübarizədə ilk ölkələrdən olduğu kimi, qabaqcıl Avropa ölkələri ilə eyni vaxtda vaksinasiyaya başlayıb. Ölkəmizdə Çinin "SinoVac" şirkətinin istehsal etdiyi "Coronavac" peyvəndindən istifadə olunur. Qeyd edək ki, vaksinin 1-ci dozası vurulduqdan 28 gün sonra 2-ci doza da vurulmalıdır. Məlumat üçün bildirək ki, son statistikaya əsasən, hazırki, dövrədək ölkəmizdə koronavirus infeksiyasına qarşı 574541 nəfər peyvəndlənmə prosesində iştirak edib. Vaksinasiya respublikanın bütün rayonlarında davam etdirilir.

**"Biz birlikdə güclüyük"**

2020-ci il ölkəmiz üçün xüsusilə çətin və məsuliyyətli oldu. Azərbaycan eyni vaxtda iki düşmən ilə savaşdı. Bu dövrdə hər kəs bir yumruq kimi birləşdi. Müzəffər Azərbaycan ordusu 44 günlük müharibədə düşmənə qalib gəldi.

Belə bir deyim var: " El bir olsa, dağ oynadar yerindən". Xalqımız müharibə dövründə göstərdiyi birliyi, əzmi bu gün bütün dünyanın bir nömrəli bəlasına çevrilmiş koronavirusa qarşı mübarizədə də göstərir. Əminliklə deyə bilərik ki, prezidentimizin uzaqgörən və düşünülmüş siyasəti bütün azərbaycanlıların dərin rəğbətini qazandı. Biz əminik ki, dünyamız yaxın zamanda bu bəladan qurtulacaq və normal həyatımıza geri qayıdacağıq. Bunun üçün də biz birgə olub qoyulan qaydalara riayət etməliyik. Unutmayaq ki, qoyulan hər qayda, dövlətimiz tərəfindən atılan hər addım bizim rahat və sağlam yaşamağımız üçündür.

**İlahə RƏHİMOVA,**
**"Qəbələ"**

# Vaksinasiya sağlamlığa rəhndir

Bildiyimiz kimi, bu gün insanları virusun yaranması deyil, onun pandemiya kimi yaratdığı təhlükənin nə vaxtadək davam etməsi maraqlandırır. Unutmamalıyıq ki, bu virus dünyanı lərzəyə salmaqla yanaşı Böyük Britaniyada koronavirusun daha yüksək yoluxdurma imkanına malik olan variantı 100-dən çox ölkədə qeydə alınmışdır. Cənubi Afrikada tapılan ştammın coğrafiyası 60 ölkədən də artıq ərazini əhatə edir. Bu virus əvvəlcə Braziliya və Yaponiyada aşkar edilmişdir və hazırda 32-dən çox ölkədə yayılmışdır. Elə buna görə də, koronavirusun qarşısının alınması çox vacibdir. Vaksinasiya və peyvəndlənməyə daha ciddi yanaşmaq lazımdır.

Peyvənd aparılması zamanı peyvəndlərin kimlərə vurulması hər kəsi düşündürür. Həmçinin vaksinasiya zamanı hansı əks göstəricilərin ola bilməsi də əhalinin müəyyən qismini narahat edir.




Əhali arasında vaksinasiya aparılması rayonumuzda da könüllülük prinsipi ilə həyata keçirilir. Hər iki vaksin tətbiq olunmuş bir neçə şəhər sakini ilə görüşmüş, onlarla söhbət aparmışıq. Onlardan ikisinin söhbəti ilə oxucularımızı tanış edirik.

**Nazikə Məmmədova - rayon mərkəzi xəstəxanasının cərrahiyyə şöbəsinin tibb bacısı** - Artıq COVİD-19-un necə bir virus olduğu hər kəsə aydındır. Ondan qorunmağın yolları da təbliğat və tətbiq üsulu ilə əhali arasında demək olar ki, daha çox maarifləndirilmişdir. Elə buna görə də bu gün insanlar vaksinasiyanın üstünlüyünü dərk edirlər, könüllü halda peyvənd aparılmasında iştirakçı olurlar.

Mən hər iki peyvəndləmədə iştirakçıyam.

Peyvənd vurduran hər bir şəxs peyvənd aparılması ilə məşğul olan həkim kollegiyasının məsul işçiləri tərəfindən yoxlanılmalıdır. İmmun sistemi zəif olan şəxslərə vaksin vurulmamalıdır. Birinci vaksini vurdurduqdan sonra özümdə elə bir narahatlıq hiss etmədim. Sadəcə peyvənd iynəsi vurulduqdan sonra 3 gün iynənin yerinə su vurmaq olmaz.

Heç bir qızartıya da rast gəlmədim

28 gün sonra ikinci peyvənd iynəsi vurdurdum.

Bu birincidən fərqli olsa da, heç bir qorxu hissi yarada biləcək qədər deyil! Sadəcə peyvənd vurulan kəs bir neçə gün özünü soyuq havadan qorumalıdır. Peyvənd vurduran zaman ətrafındakı insanlardan heç də təcrid olunmursan. Mən də ailəmlə birgə olmuşam, sadəcə evdə də bir neçə gün maskadan istifadə etdim və izolyasiya qaydalarına riayət etdim. Bu gün hər iki peyvənd iynələrini vurduran bir şəxs kimi heç bir problem yaşamıram. Əksinə, qəlbən rahatam, çünki bəzən insanlar peyvəndlənmənin xofunu yaşayırlar. Qorxusuz, həyacansız hər kəsin vaxtında peyvənd vurdurması vacibdir.

**Səhrab Umuyev- "Qəbələ" qəzeti redaksiyası** - Hər kəs xəstəliklə bağlı vaksinasiya edilməsinin xofunu yaşayır. Doğrudur, peyvəndin yüngül və əks təsirləri də vardır. Yüngül təsirləri odur ki, peyvənd olunan nahiyədə qızartı, şişkinlik, müəyyən istilik, ümumi bədən temperaturunun yüksəlməsi, halsızlıq hallarının olmasıdır.

Vaksin orqanizmdə müəyyən xəstəlik əlaməti formalaşdırmalıdır ki, ona qarşı immun sistemimiz aktivləşsin və immumitet formalaşsın. Bu hallar bir neçə gün ərzində baş verə bilər və əhəmiyyətsizdir. Ciddi yan təsirlərə allergik reaksiya aiddir ki, o da 30-40 dəqiqə müddətində vaksin vurdurduqları məntəqədə nəzarətdə saxlanıldığı üçün heç bir narahatlıq törətmir..

Mən də hər iki peyvəndlərdən keçmişəm, heç bir narahatlığım yoxdur. Unutmayaq ki, xəstələndiyimiz halda adi bir iynədən də allergiya ola bilərik. Burada həkimin nəzarətində oluruq və həkim tövsiyələrinə diqqət etməklə pandemiyaya qarşı daha güclü mübarizə aparırıq. Bu immun xəstəliyidir, biz isə deyilən virusdan qorunma vasitələrindən istifadə etməklə, immunitetimizin düşməməsinə çalışmalıyıq!

Vaksinasiyada hər kəsin iştirakı vacibdir. Bu onların həyatına, sağlamlığına inam və rəhndir.

**Bibixanım İSAYEVA.**

# Birgə mübarizədə güclüyük

1950-ci ildən başlayaraq aprel ayının 7-ci Ümumdünya Sağlamlıq Günü kimi qeyd edilir. Bu sağlamlığın və səhiyyənin problemlərinə yönələn və planetin hər bir sakininin sağlamlığının qorunması və əmin-amanlığının təmin edilməsi üçün birgə fəaliyyət göstərməyə xidmət edən əlamətdar bir gündür.

Sağlamlıq yaşamaq, həyat deməkdir. Bu həyatı qorumaq üçün bütün dünyanı təşvişdə saxlayan COVİD-19 koronavirus pandemiyasının qarşısını almaq və buna görə də deyilən tələblərə əməl etmək lazımdır. Yoluxmadan qorunmaq üçün qoruyucu vasitələrdən istifadə etməklə, izolyasiyaya diqqəti yanaşmaqla bərabər vaksinasiyaya da inamla başlamaq hər bir vətəndaşı düşündürməlidir. Çünki dünya ölkələrinin təcrübəsinə əsasən, vaksinasiya ən səmərəli mübarizə vasitəsi kimi özünü təsdiqləyir.

Bir neçə aydır həyata keçirilən



vaksinasiya dünyanın bir çox ölkələrində koronavirusa yoluxma sayının azalmasında özünü göstərməkdədir. Əhalinin əksəriyyətinin ən azı bir doza peyvənd aldığı ölkələrdə ölüm sayının azaldığı müşahidə edilir.

Azərbaycan pandemiya ilə mübarizədə ilk günlərdən qabaqlayıcı tədbirlər görən nümunəvi ölkələr sırasındadır.

Respublikamız ÜST-ə 10 milyon dollar məbləğində könüllü ianə verib və bu vəsaitin 5 milyonu Qoşulmama Hərakatına üzv olan kasıb ölkələrə ayrılıb.

Dünyada koronavirusun yeni ştammlarının yayıldığı, eləcə də ölkəmizdə son vaxtlar virusayoluxma dinamikasında artımla əlaqədar olaraq bir sıra ehtiyat tədbirləri görülməsi üçün qərarlar verilib.

Belə ki, bir neçə şəhər və rayonlarda dərslər ənənəvi üsuldan, distant qaydaya keçirilmişdir.

Pandemiya ilə mübarizədə vətəndaşların ehtiyatlı davranması, sosial məsafəyə, maska taxılmasına məsuliyyətlə yanaşması vacibdir.

Koronavirusa qarşı ehtiyat tədbirlərinə nə qədər çox əməl etsək, normal həyata qayıdışımız da bir o qədər sürətli olacaqdır.

İnanırıq ki, hər bir vətəndaşın şəxsi məsuliyyəti, koronavirus infeksiyasının bütün ştamlarına qarşı başlıca rol oynayacaq, ən effektli qoruyucu mexanizm olan vaksinasiyanın aparılması ilə tezliklə dünyamızı COVİD bəlasından qurtaracaqdır.

* * *

Bakı şəhərindəki Heydər Əliyev Beynəlxalq Aeroportu "Skytrax" beynəlxalq hava nəqliyyatı agentliyi tərəfindən COVİD-19 pandemiyası dövründə epidemioloji təhlükəsizlik üzrə ən yüksək "5 ulduzlu" reytinqə layiq görülən dünyada beşinci hava limanı olmuşdur.

COVİD-19 auditi çərçivəsində maskalardan istifadə qaydalarına riayət olunmasına, istifadə qaydalarına riayət olunmasına, əməkdaşlar və sərnişinlər arasında sosial məsafənin qorunmasına diqqətlə nəzarət edilir.

**"Qəbələ"**